# Yüksək peşəkarlıq və rəşadət nümunəsi



## *12 iyul 2020-ci ildə başlayan Tovuz döyüşləri Tarixi Zəfərə gedən yolu daha da yaxınlaşdırdı*



***2016**-cı ilin Aprel döyüşləri, 2018-ci ilin Günnüt əməliyyatı, 2020-ci ilin Tovuz döyüşləri Vətən müharibəsində Qələbəmizin carçısı oldu. Tovuz döyüşləri ölkəmizə qarşı təxribatçı əməllərindən əl çəkməyən Ermənistan ordusunun növbəti çirkin niyyətini öz başında çatladan uğurlu əməliyyatlardan biri kimi tarixə düşdü. Belə ki, Ermənistanın təxribatlarının qarşısının alınması ilə başlayan beşgünlük iyul döyüşlərində rəşadətli Ordumuz düşmənə sarsıdıcı zərbə vuraraq onun mənfur niyyətini darmadağın etdi.*

Ordumuzun böyük qələbəsi ilə başa çatan Vətən müharibəsinə gedən yolun əsas mərhələlərindən olan Tovuz döyüşlərindən artıq beş il ötür. 2020-ci ilin iyulun 12-də günorta saatlarından başlayaraq Ermənistan silahlı qüvvələri ölkəmizin dövlət sərhədinin Tovuz rayonu istiqamətində atəşkəsi kobud şəkildə pozaraq Azərbaycan Ordusunun mövqelərini atəşə tutub. Həmin gün düşmən dövlət sərhədində iriçaplı silahlardan ... iri-miqyaslı təxribata əl atıb. Düşmənin təxribatının qarşısı alınıb və dayaq nöqtələri, yüzlərlə hərbi qulluqçusu məhv edilib. İyulun 13-nə keçən gecə Ermənistan hərbi birləşmələri Tovuz istiqamətində gərginliyi artırmaq məqsədilə iriçaplı pulemyotlardan, qumbaraatanlardan, snayper tüfənglərindən, minaatanlardan və digər artilleriya qurğularından da istifadə etməklə Ordumuzun mövqelərini, o cümlədən Tovuz rayonunun Ağdam kəndini minaatanlardan yenidən atəşə tutub. Düşmənin bu təxribatlarına qarşı qoşunlarımız tərəfindən daha sərt cavab tədbirləri görülüb. Artilleriya, minaatan və tankların tətbiqi ilə gedən gecə döyüşlərində Azərbaycan Silahlı Qüvvələrinin bölmələrinin dəqiq atəşi ilə qarşı tərəfin dayaq məntəqəsi, artilleriya qurğuları, avtomobil texnikası və canlı qüvvəsi məhv edilib. Bölmələrimizin sarsıdıcı zərbələri nəticəsində düşmən xeyli itki verib.

İyulun 13-də Prezident İlham Əliyevin sədrliyi ilə Təhlükəsizlik Şurasının iclası keçirilib. Bölmələrimiz düşmənin fəaliyyətinin qarşısının alınması məqsədilə cəza tədbirləri görüblər, mövqelərimizə hücuma keçməyə cəhd göstərən qarşı tərəfin bu niyyətinin də qarşısı alınıb. Elə həmin gün Ermənistan silahlı qüvvələrinin bölmələri Tovuz rayonunun Ağdam və Dondar Quşçu kəndlərini minaatanlardan və toplardan atəşə tutublar. Düşmənin bütün təxribatlarına qarşı qoşunlarımız tərəfindən sərt cavab tədbirləri həyata keçirilib. Ermənistan silahlı qüvvələrinin bir neçə hərbi obyekti və texnikası, həmçinin atəş mövqeləri, radiolokasiya stansiyası, şəxsi heyəti, tabor qərargahı və hərbi infrastrukturu bölmələrimizin dəqiq atəşi ilə darmadağın edilib.

Şiddətli döyüşlər iyulun 13-dən 14-nə keçən gecə və səhər saatlarında Azərbaycan-Ermənistan dövlət sərhədinin Tovuz rayonu ərazisində davam edib. İyulun 14-də Ermənistan silahlı birləşmələri Tovuz rayonunun Ağdam, Əlibəyli və Dondar Quşçu kəndlərini iriçaplı silahlardan və artilleriya qurğularından atəşə məruz qoyub. Həmin gün döyüş zamanı müdafiənin ön xəttindəki Azərbaycan Ordusunun general-mayoru Polad Həşimov və polkovnik İlqar Mirzəyev, eləcə də düşmən hücumunun qarşısını alarkən beş hərbi qulluqçumuz qəhrəmancasına şəhidlik zirvəsinə ucalıblar. Bu, Silahlı Qüvvələrimizin general və digər yüksəkrütbəli zabitlərinin əsl vətənpərvərliyini, cəbhənin ön xəttində döyüş tapşırıqlarını ləyaqətlə yerinə yetməsini dünyaya nümayiş etdirdi. Əsgərlərinin və döyüş yoldaşlarının böyük rəğbətini və sevgisini qazanan səngər generalının şəhadəti bütün Azərbaycanı ayağa qaldırdı. Onun və silahdaşlarının qəhrəmancasına həlak olmaları ordumuzun səbir kasasını daşırdı. Azərbaycan Ordusu ermənilərin komanda məntəqəsinə hücum etdi. Düşmənə məxsus müxtəlif təyinatlı hərbi texnika, döyüş vasitələri, komanda məntəqəsi, müdafiə dərinliyindəki ehtiyatlar və canlı qüvvə məhv edildi. Bir neçə gün davam edən Tovuz döyüşləri göstərdi ki, Azərbaycan Ordusu gözlənilməz hücumun qarşısını almağa həmişə hazırdır. Ali Baş Komandan həmin günlər deyib: "Biz fəxr edirik ki, Azərbaycan xalqı, Azərbaycan torpağı belə övladlar yetişdirib". Ölkə rəhbəri Tovuzda baş verən hadisələri Ermənistanın növbəti təxribatı adlandırıb və ölkəmizin ərazi bütövlüyünü qoruyacağını qətiyyətlə ifadə edib.

Azərbaycan Ordusu şəhidlərimizin qisasını tezliklə alıb. Bu dəfə də vəziyyət gərginləşdikdə qarşı tərəf dərhal yaşayış məntəqələrimizə atəş açmağa başlayıb. Ermənistan silahlı qüvvələrinin Tovuz rayonu istiqamətində açdığı artilleriya atəşi nəticəsində rayonun Ağdam kənd sakini həlak olub. Ermənistan hərbi birləşmələrinə məxsus pilotsuz uçuş aparatı vurulduqdan sonra düşmənin atəş mövqeyindəki artilleriya qurğusu bölmələrimizin sərrast atəşi ilə yerlə-yeksan edilib. Həmçinin, düşmənin döyüş fəaliyyətinin qarşısının alınması məqsədilə onun artilleriya divizionunun idarəetmə məntəqəsi Milli Ordumuzun bölmələrinin dəqiq atəşi ilə sıradan çıxarılıb. Bir gün sonra görülən cəza tədbirləri nəticəsində Ermənistan silahlı qüvvələrinə məxsus döyüş texnikası və daha bir bölüyün dayaq məntəqəsi məhv edilib. Düşmən bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan, snayper tüfənglərindən, minaatanlardan və digər artilleriya qurğularından istifadə edərək atəş açsa da, cavab tədbirləri ilə susdurulub. Tovuz rayonu istiqamətində mövqelərimizi və yaşayış məntəqələrimizi atəşə məruz qoyan qarşı tərəfin bölmələrinin uzunmüddətli atəş nöqtələri və dayaq məntəqəsi darmadağın edilib.

Tovuz döyüşlərinin əhəmiyyəti Ali Baş Komandanın rəhbərliyi ilə xalqımızın düşmənə qarşı qəhrəmancasına döyüşən Ordumuzla milli həmrəylik nümayiş etdirməsi idi. Belə ki, iyulun 14-dən 15-nə keçən gecə on minlərlə gənc paytaxtımızda yürüş edərək Azərbaycan Ordusuna dəstəyini göstərib. Növbəti günlərdən başlayaraq, çoxsaylı azərbaycanlı gənc ordu sıralarına yazılmaq üçün Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin bölmələrinə müraciət edib. Nazirlər Kabinetinin iyulun 15-də keçirilmiş iclasında Prezident, Ali Baş Komandan İlham Əliyevin "Əgər kimsə, hansısa vətənpərvər insan orduda xidmət etmək istəyirsə, mən bunu ancaq alqışlayıram" çağırışına səs verən minlərlə vətəndaşımız Xidmətin yerli idarə, şöbə və bölmələrinə gələrək könüllü şəkildə orduda xidmət etmək barədə arzularını bildirib və müvafiq qaydada qeydiyyata alınıblar. İyulun 17-də Tovuz rayonu istiqamətində nisbi sakitlik olsa da, ümumilikdə gərginlik davam edib.

Azərbaycan Ordusunun yüksək peşəkarlığının daha bir nümunəsi olan Tovuz döyüşləri zamanı Silahlı Qüvvələrimizin 12 hərbi qulluqçusu şəhidlik zirvəsinə ucalıb və 1 mülki şəxs həlak olub. Bu döyüşlərdə düşmənin 100-dən çox hərbçisi məhv edilib, döyüş texnikaları sıradan çıxarılıb. Xalq bu döyüşlər zamanı şəhid olan mərd, vətənpərvər oğullarını böyük izdihamla son mənzilə yola salıb. Tovuz döyüşləri zamanı xüsusi qəhrəmanlıq göstərdiklərinə görə general-mayor Polad Həşimov və polkovnik İlqar Mirzəyev Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamı ilə ölümdən sonra Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülüblər.

Tovuz döyüşləri beynəlxalq aləmdə də geniş rezonans doğurdu. Bir çox ölkələr və beynəlxalq təşkilatlar tərəfləri aralarındakı gərginliyi azaltmağa və münaqişəni diplomatik yolla həll etməyə, sülhə və danışıqlara çağırdı. Qardaş Türkiyə Azərbaycanı dəstəklədiyini bildirdi və Ermənistanın hücumlarını qınadı. Türkiyə rəsmiləri, o cümlədən Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan Azərbaycana hər cür dəstək verəcəklərini bəyan etdi. Dünya bu döyüşlərə biganə qala bilmədi. Türkiyə Xarici İşlər Nazirliyi Ermənistan Silahlı Qüvvələrinin Azərbaycan Ordusunun mövqelərini atəşə tutması ilə bağlı bəyanat yaydı və Ermənistan silahlı birləşmələrinin Azərbaycanın Tovuz bölgəsinə hücumu qətiyyətlə pislənilib. Rusiya Xarici İşlər Nazirliyi dərhal atəşi dayandırmağa çağırdı. Gürcüstan prezidenti 12-13 iyul tarixlərində Azərbaycan və Ermənistan sərhədində baş verən silahlı qarşıdurmaya görə narahatlığını ifadə etdi. Pakistan, Qazaxıstan, Moldova, Yaponiya, Böyük Britaniya kimi dövlətlər hərbi əməliyyatların dərhal dayandırılmasına çağırdılar. Türk Şurası, GUAM, ATƏT və digər təşkilatlar Tovuz rayonunun artilleriya atəşinə tutulmasını və beləliklə, bölgədə gərginliyin artmasını qətiyyətlə pislədilər. Beləliklə, Tovuz döyüşləri Azərbaycan Ordusunun qələbəsi ilə yekunlaşdı. Hərbi qələbəmizi qeyd etmək üçün minlərlə insan küçələrə çıxdı, dövlətə, orduya dəstək göstərdilər.

Tovuz döyüşlərindən bir müddət sonra Azərbaycan Ordusu Qarabağda tarix yazdı, düşmənin belini qırdı, Zəfər qazandı. Şanlı Ordumuz düşmənin silahlı qüvvələrini darmadağın edərək torpaqlarımızı işğaldan azad etdi və Azərbaycanın ərazi bütövlüyü bərpa olundu. Bununla da tarixi ədalət yerini tapdı, əzəli Azərbaycan torpaqları öz sahiblərinə qaytarıldı. Bu Zəfər Tovuzun Qaraqayasından başladı, Şuşada, Xankəndidə bayrağımızın dalğalanması ilə başa çatdı.

**Mustafa KAMAL,**
**"Respublika".**